SUMQAYIT KİMYA SƏNAYESİ - 70

# Əməyin zirvəsində dayanan kimyaçı

## *Ulu öndər Heydər Əliyev:* Mən Azərbaycanda kimya sənayesinin inkişafına xidmət etmiş adamların əməyini yüksək qiymətləndirirəm





Tarixin illərlə yazılmış səhifəsində özünəməxsusluğu ilə seçilən Sumqayıt qurulanda tarix səhifəsinə gənclik və kimyaçılar şəhəri kimi yazıldı. Ötən əsrin 30-40-cı illərindən qurulmağa başlayan şəhərimizi keçmiş İttifaq miqyasında tanıdan müəssisələr sırasında Sintetik kauçuk və digər kimya zavodları xüsusi önəm daşıyırdı ki, onların da əmək qəhrəmanları arasında Laura Bünyadovanın da adı fəxrlə çəkilmiş, bu gün də çəkilir. Təqdirəlayiq haldır ki, bu insanların çəkdikləri zəhmət yerdə qalmamış, 70 illik bir dövr ərzində kimya sənayesini şöhrətləndirən minlərlə kimyaçının əməyi fəxri adlarla, orden və medallarla qiymətləndirilmişdir.

Laura Hacı qızı Bünyadova 1941-ci ildə Şəmkirdə anadan olmuş, 1948-58-ci illərdə Ağstafa rayonunda orta təhsil almışdır. O, Sumqayıta üz tutanda cəmi 18 yaşı var idi. Gənc qız təhsilini şəhərimizdəki Kimya-Texnologiya Texnikumunda davam etdirmişdir.

Sumqayıta gəldiyi ilk gündən gəncliyin qaynar həyatına qaynayıb-qarışan Laura xanım çox keçmir ki, bilik və bacarığına, ictimai fəallığına görə öz ətrafına həmfikirlərini toplaya bilir. Onun əməksevərliyini, iş qabiliyyətini nəzərə alıb 1962-ci ildə Sintetik kauçuk zavodunda komsomol komitəsinə katib seçirlər. Laura xanıma ictimaiyyətin etimadını layiqincə doğrultmaq üçün 2 il kifayət edir. Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı Mərkəzi Komitəsi tərəfindən təşkilatın təltif olunması əslində Laura Bünyadovanın əməyinə verilən qiymət kimi dəyərləndirilə bilər.

Ötən əsrin 60-cı illərində Sumqayıt Kimya Kombinatı Ümumittifaq zərbəçi komsomol tikintisi elan olunmuşdu. Qərarqaha rəis təyin olunan Laura Bünyadova necə bir məsuliyyətli yükün altına çiyin verdiyini başa düşürdü. Keçmiş İttifaqın ayrı-ayrı respublikalarından axışıb gələn gənclərə rəhbərlik etmək, onlarla isti münasibət qurmaq əlbəttə ki, hər kəsə müyəssər olan bir iş deyildi. Lakin Laura Bünyadovanın canfəşanlığı, cəfakeşliyi bu çətin peşənin öhdəsindən gəlməyə imkan verirdi. Bu işdə ona aldığı siyasi təhsil də kömək edirdi. Çünki Laura xanımı daim diqqətdə saxlayan şəhər rəhbərliyi onun siyasi arenada daha da püxtələşməsi üçün Bakı Ali Partiya məktəbində təhsil almağa göndərmişdi.

1971-1975-ci illərdə Səthi-aktiv maddələr zavodu partiya komitəsinin katibi işləyən Laura Bünyadova əməyinə verilən qiymətdən narazı deyildi. O, 1973-cü ildə "Sosializm yarışının qalibi" döş nişanı ilə təltif olunmuşdu. Zavod partiya komitəsinə rəhbərlik etdiyi müddətdə müəssisədə sülfanol istehsalatının tikintisi üçün əlindən gələni əsirgəməmişdi. Onun bu addımı o zamanlar respublikanın rəhbəri olan ulu öndər Heydər Əliyevin diqqətindən yayınmamış, Sumqayıta rəsmi səfəri zamanı Laura Bünyadovanın əzmkarlığını xüsusi qeyd etmişdi.

Qətiyyətlə demək olar ki, Azərbaycanın neft-kimya sənayesi ötən əsrin 70-ci illərindən başlayaraq nəyə nail olmuşdursa və bu gün nələrə qadirdirsə, bütün bunlar Ulu Öndərin Azərbaycan iqtisadiyyatının mühüm və vacib strateji sahələrindən olan neft-kimya sənayesinin inkişafına göstərdiyi diqqət və qayğının real nəticəsidir. Kimyaçılarımız da kimya sənayesində ümummilli lider Heydər Əliyevin 1969-cu ildən başlayan diqqət və qayğısını daim hiss etmişlər. Sumqayıtın sosial-iqtisadi inkişafında, onun sənaye sahələrinin və infrastrukturunun formalaşmasında və potensialının artırılmasında Ulu Öndərin müstəsna xidmətləri olmuşdur. Vaxtilə dahi rəhbərimiz kimyaçılarımız haqqında bildirmişdi: "Mən Azərbaycanda kimya sənayesinin inkişafına xidmət etmiş adamların əməyini yüksək qiymətləndirirəm."

Sonralar Sumqayıt Şəhər Partiya Komitəsində təlimatçı kimi çalışan Laura Bünyadovanın ictimai fəallığı onu daha məsuliyyətli bir işin qulpundan yapışmağa sövq etdi. 1976-cı ildə Texniki Peşə Təhsili Şəhər İdarəsinin rəisi təyin olunan Laura xanım işlədiyi müddət ərzində dövrün tələbləri ilə uzlaşan islahatlar aparmış, onlarla peşəyönümlü ixtisas sahələri yaratmışdı. L.Bünyadovanın Ümumittifaq Komsomol Mərkəzi Komitəsi, "Əmək Ehtiyatları" Könüllü İdman Cəmiyyəti", SSRİ Nazirlər Soveti Bədən Tərbiyəsi və İdman Komitəsi tərəfindən təltif olunmasını, "Qırmızı Əmək Bayrağı" Ordeninə layiq görülməsini xatırlatmaq kifayətdir ki, onun iş potensialının hansı çərçivəyə sığdığını deməyə əsas versin. Daha çox ictimaiyyətçi kimi tanınan, öz peşəsinin ustası olan Laura Bünyadova Sumqayıt Şəhər Xalq Deputatları Soveti İcraiyyə Komitəsi Təşkilat şöbəsində müdir vəzifəsini icra etdiyi vaxtlarda da şəhər əhalisinin etimadını qazanmaqla dövrün, zamanın nəbzini tutmağı bacarmışdı.

Keçmişini "adi kənd qızı idim, Sumqayıta gəldim, qaynar bir həyata atıldım. Dünyagörüşüm artdı, insanlara münasibətim dəyişdi, gördüm, öyrəndim, oxudum, bildim. Bir sözlə, Sumqayıta gəlməyimə peşiman deyiləm" kəlmələri ilə xatırlayan Laura Bünyadova indi aramızda yoxdur. Əməyin zirvəsində dayanmış belə qəhrəmanlarını unutmayan Sumqayıt illər ötsə də, onların zəhməti, alın təri ilə yaşa dolduğu ilə fəxr edir.

**Sənurə Lazımova,**
Sumqayıt Tarixi Muzeyinin böyük elmi işçisi